**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlığa dair 2025-2027-ci illər üzrə**

# TƏDBİRLƏR PLANI

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi,

2 may 2007-ci il tarixli "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"in həyata keçirilməsi məqsədilə,

2025-2027-ci illər üçün aşağıdakı tədbirlərin həyata keçirilməsinə razılıq verirlər:

**1.** Tərəflər aşağıdakı sahələr üzrə təcrübə mübadiləsini həyata keçirəcəklər:

- zoonoz xəstəliklərin laborator diaqnostikası və risk təhlili;
- heyvan xəstəliklərindən azad zonanın yaradılması;
- dabaq xəstəliyinə qarşı mübarizə;
- elmi potensialın inkişafı;
- sahə şəraitində təlimlərin keçirilməsi.

**2.** Tərəflər Azərbaycan Respublikası ərazisində baytarlıq preparatları istehsalı müəssisəsinin yaradılması üzrə əməkdaşlığı davam etdirəcəklər.

**3.** Qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədilə Tərəflər ildə ən azı bir dəfə rəhbər və/və ya rəhbərin müavinləri səviyyəsində ikitərəfli məsləhətləşmələr aparacaqlar.

**4.** Tərəflər Belarus Respublikasının qida obyektlərinin, xüsusən də quş, quş əti və onun sub məhsullarının istehsalı və emalı, eləcə də yumurta istehsalı müəssisələrinin təsdiq sisteminin ekvivalentliyinin tanınması prosedurunun yekunlaşdırılması üzrə işləri davam etdirəcəklər.

**5.** Tərəflərin qarşılıqlı razılığı ilə bu Tədbirlər Planına dəyişikliklər və əlavələr edilə bilər.

**6.** Qarşılıqlı səfərlərin təşkili ilə bağlı xərcləri (beynəlxalq nəqliyyat, yerləşdirmə və gündəlik xərclər) göndərən Tərəf ödəyəcək, qəbul edən Tərəf isə təşkilati tədbirləri həyata keçirəcək.

**7.** Bu Plan imzalandığı gündən tətbiq edilir və 31 dekabr 2027-ci il tarixinədək qüvvədədir.

Bakı şəhərində 5 may 2025-ci il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn bərabər qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından** | **Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi adından** |

**ПЛАН МЕРОПРИЯТИЙ**

**на 2025-2027 годы**
**по сотрудничеству в области ветеринарии**
**между Агентством пищевой безопасности Азербайджанской Республики и Министерством сельского хозяйства и продовольствия Республики Беларусь**

Агентство пищевой безопасности Азербайджанской Республики и Министерство сельского хозяйства и продовольствия Республики Беларусь, именуемые в дальнейшем «Стороны»,

с целью реализации «Соглашения между Правительством Азербайджанской Республики и Правительством Республики Беларусь о сотрудничестве в области ветеринарии» от 2 мая 2007 года,

договорились об осуществлении следующих мероприятий на 2025-2027 годы:

**1.** Стороны будут осуществлять обмен опытом в следующих областях:

- лабораторная диагностика и анализ рисков зоонозных заболеваний;
- создание зон, свободных от болезней животных;
- борьба с ящуром;
- развитие научного потенциала;
- проведение тренингов в полевых условиях.

**2.** Стороны продолжат сотрудничество по созданию предприятия по производству ветеринарных препаратов на территории Азербайджанской Республики.

**3.** С целью обсуждения вопросов взаимного сотрудничества Стороны будут проводить двусторонние консультации на уровне руководителей и/или заместителей руководителей не реже одного раза в год.

**4.** Стороны продолжат работу по завершению процедуры признания эквивалентности системы подтверждения пищевых объектов Республики Беларусь, в частности предприятий по производству и переработке птицы, мяса птицы и субпродуктов из нее, а также по производству яиц.

**5.** В настоящий План мероприятий могут быть внесены изменения и дополнения по взаимному согласию Сторон.

**6.** Расходы, связанные с организацией взаимных визитов (международный транспорт, размещение и суточные расходы), несет направляющая Сторона, а принимающая Сторона осуществляет организационные мероприятия.

**7.** Настоящий План применяется со дня его подписания и действует до 31 декабря 2027 года.

Подписан в городе Баку 5 мая 2025 года в двух подлинных экземплярах, каждый на азербайджанском и русском языках, причем оба текста имеют одинаковую силу.

| | |
|---|---|
| **За Агентство пищевой безопасности Азербайджанской Республики** | **За Министерство сельского хозяйства и продовольствия Республики Беларусь** |